**T Ə S V İ R İ   S Ə N Ə T**

**UOT 7(091)**

**Fatma Şahbazova**
**AMEA Naxçıvan Bölməsi**
**AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 76**
**E-mail:**fatma_sahbazova@hotmail.com

# ŞAMİL QAZIYEVİN YARADICILIĞINDA MƏİŞƏT JANRI

**Xülasə**: Naxçıvan qədim və zəngin tarixə malik bir diyardır. Yer kürəsinin sədəf boyda olan bu ərazisi həmişə təbii sərvətləri, flora və faunası, tarixi abidələri, iqlimi, mətbəxi və əsasən qonaqpərvərliyi ilə tanınmışdır. Bu diyar öz millətinə aktyor, bəstəkarlar və rəssamlar, heykəltəraşlar bəxş etmişdir. Bu torpağın yetirmələrindən olan Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi, rəssam Şamil Həsən oğlu Qazıyevdir. Görkəmli rəssam Şamil Qazıyevin qəlbən bağlı olduğu qədim diyarlardan olan Naxçıvana həsr etdiyi "Köhnə Naxçıvan" silsiləsindən və həmin silsiləyə daxil olan bir neçə əsər təhlil olunur. Rəssam milli adət və ənənələrdən bəhs edən "Köhnə Dəyirman", "Öküzlərin Nallanması", "Çörək Bişirənlər" və "Xırmanda" adlı əsərlərin təhlilinə üstünlük verilir.

**Açar sözlər:** rəssam, "Köhnə Naxçıvan" silsiləsi, milli motivlər, şamil qazıyev, teatr rəssamı.

XX yüzilliyin əvvəllərində Naxçıvanda Azərbaycanın tanınmış rəssamlarından Bəhruz bəy Kəngərli professional realist rəssamlıq sənətinin əsasını qoymuşdur.Onların diqqətəlayiq fəaliyyətləri muxtar respublikada təsviri sənətin formalaşmasında müstəsna rol oynamışdır. Naxçıvan MR-nın ilk əməkdar incəsənət xadimi olan Şamil Həsən oğlu Qazıyev ustad sənətkar kimi dəyərləndirilmişdir. O, gənc rəssamlara sənətin sirlərini öyrətmişdir.

Şamil Qazıyev 30 mart 1908-ci ildə İrəvan şəhərində anadan olmuş və 13 iyul 1980-ci ildə Bakı şəhərində vəfat etmişdir (1, s.58). Şamil Qazıyev 1929-cu ildəBakı Rəssamlıq Məktəbini bitirdikdən sonar Naxçıvana gəlmiş, 1932-ci ilə kimi Naxçıvan Pedoqoji Texnikumunda müəllim, 1932-1934 - cü illərdə"Kommunist" qəzetində rəssam, 1934 - 1948 – ci illərdə isə "Şərq qapısı" qəzeti və M.F .Axundov adına Naxçıvan Dövlət Dram Teatrında baş rəssam vəzifəsində çalışmışdır. O, eyni zamanda 1940 – 1941- ci illərdə Naxçıvanda ilk dəfə açılmış Rəssamlıq Məktəbinin təşkilatçısı və direktoru olmuşdur (bu məktəb ikinci Dünya Müharibəsinin başlanması ilə əlaqədar cəmi 1 il fəaliyyət göstərmişdir). Böyük sənətkar 1948-ciildə ailə vəziyyəti ilə əlaqədar olaraq Bakı

şəhərinə köçmüş və ömrünün sonunadək "Azərbaycan gəncləri" qəzetində rəssam vəzifəsində çalışmışdır (4,s. 333- 334).Naxçıvanda işlədiyi qıssa müddətdə indiki Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı və Ordubad Dövlət Dram Teatrının səhnəsində tamaşaya qoyulmuş 120 - dən çox əsərin bədii tərtibatını və geyim eskizini vermişdir. Şamil Qazıyev pyeslərdə orjinal rəssamlıq üslubu və səhnə tərtibatı ilə tamaşaçıların yaddaşlarından silinməz iz buraxmışdır (3, s. 42- 61).Şamil Qazıyev əsasən teatr rəssamı kimi tanısaq da, onun təsviri sənətinin müxtəlif növləri vəjanrlarında yaratdığı,çoxlu sayda qrafika əsərləri vardır.Özünəməxsus konkret cizgiləri,rəsm etmə manevrası ilə diqqətini cəlb etmiş qrafik kompozisiyalardan "Qardaşımın portreti" (1927), "Avtoportret" (1928 ), "Ata" (1929 ), "Köhnəhəyət" (1931), "Culfada köhnə mehmanxana", " Naxçıvanda pambıq zavodu" (1934 ), "Hacıkənd" (1937), "110 yaşlı qoca" (1939), "Köhnə İrəvan" (1939), "Köhnə Naxçıvan" (1943), "Çobanlar qışlaqda" (1944), "Ədil Ağa gölü" (1976), "Culfa dağları" (1977) göstərmək olar (2, s.12-14 ).

Şamil Qazıyevin Naxçıvan sevgisi onun səfalı təbiətini, məişət ənənələrinə, insanlarına duyduğu heyranlıqdan yaratdığı "Köhnə Naxçıvan" silsiləsini əsərlərində əks etdirmişdir. Rəssam silsiləsində xalqımızın qədim adət - ənənələrini, zəngin tarixi etnoqrafiyasını, sadə və zəhmətkeş insanların həyat tərzini əks etdirən bir - birindən dəyərli onlarca sənət əsəri vardır.

Belə tablolardan biri də"Köhnə Dəyirman" əsərində iki kəndlinin köhnə bir su dəyirmanında dən üyütməsi mərasiminə həsr edilmişdir.Yağlı boyalarda çəkilmiş bu əsəri isti və soyuq rənglərin qarışıq tonları iləişlənmişdir. İlk baxışdan əsərin əsas planında diqqəti cəlb edən qapı və bacadan düşən işıq, soyuq rənglərlə kəskin kontraslıq yaratsa da, kompozisiyanın ümumi koloritini pozmur.Əksinə isti və soyuq rənglər arasında vəhdət yaradaraq əsərin hər iki planını tamamlayır. Tabloda təsvir olunan insan və heyvan fiqurlarının anatomik proporsiyaları, interyer və detalların perspektiv quruluşu, işıq və kölgə münasibətləri ən kiçik incəliyinə kimi işlənmişdir.Əsərin birinci planında təsvir olunan kəndlilərdən nisbətən cavan dəyirmançının dənliyinə çuvaldakı buğdanı tökür.Başını ağ çalma ilə bağlamış yaşlı kəndli isə, unluğun qabağında dizi üstəyerə oturub, əlindəki qabla təknəyə tökülən unu yarımçıq çuvala doldurur.Rəssam hər iki kişi fiqurunu Azərbaycan kəndlisinin minilliklər boyu geydiyi sadə milli geyimdə təsvir etmişdir.Dəyirmanın interyer quruluşu – sadə kapitelli ağac dirəkləri və olan tirlərinin düzgün düzülüşü, üst-üstə qalanmış rəngarəng oldu çuvallar, dənlikhavadan çax-çax unluq dən daşları və s digər detallar eləcə də memarlıq elementləri Naxçıvandakı su dəyirmanları üçün tamamilə xarakterikdir.

Rəssamın digər maraq doğuran əsərlərindən biri də "Öküzlərin nallanması" tablosudur."Öküzlərin nallanması" əsəri istər bədii sənətkarlıq cəhətdən, istərsə də etnoqrafik adət və ənənələrimizin öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir.Yağlı boya ilə çəkilmiş bu tablonun birinci planda iki nəfər nalbəndin (usta və şagirdin öküz nallanma səhnəsi təsvir edilmişdir). Bildiyimiz kimi öküz və kəllərin nallanması mərasimi,at və ulaqların nallanmasından fərqli olaraq, ayaq üstə olmur.Onları yerə yıxıb, ya damancanağa bağlayar,yada ki, ayaqlarının arasına tir bağlayaraq nallayarlar (5, s.54).

Əsərin birinci planında cərəyan edən epizodda, əlində nalbənd kəlbətini və çəkici olan usta mancanağa bağlanmış öküzün, qabaq ayaqlarını nallayır.Şagirdi isə heyvanın tərpənib özünə zərər verməməsi üçün arxa ayaqlarını və mancanağı tutub.Rəssam insan

və heyvan rəsmlərini çətin pozalarda çəkməsinə baxmayaraq fiqurların anatomik quruluşunu və bədən proporsiyalarını olduqca düzgün təsvir etmişdir.Birinci planda nisbətən soyuq rənglərdə işlənmiş insan fiqurlarından fərqli olaraq, öküz təsvirləri isti rəngdə verilmişdir.İsti rənglər tamaşaçının diqqətini özünə çəkməklə bərabər, ikinci və üçüncü plandakı fiqurların eyni çalarlı rəngləri ilə kompozisiyaya dinamiklik və canlılıq verir.Bu isə öz növbəsində tabloya hakim olan, soyuq rənglərlə uzlaşaraq, kompozisiyanın ümümi kaloritini və əsərin əsas ideyasının ön plana çıxmasına kömək göstərir.

Ayrıca, rəssam ikinci plandakı fiqurlara yardımcı detallar kimi baxmamışdır.Onları da əsas fiqurlar kimi canlı dolğun rənglərlə çəkilmişdir.O, ikinci plandakı öküzün də, boyunduruq altındakı yorğun yatmış dəqiqliklə işləyərək heyvanın gözlərindəki vurğunu və bədəninin torpağa yayılmış taqətsizliyini böyük bir ustalıqlatəsvir etmişdir.

Digər fiqurların düzgün natura quruluşu kənardakı sənətkar dükanlarının perspektiv plan, həlli və kompozisiyanın təmiz rənglərləçəkilməsi əsərin realistik görnüşünü tamamlayır.

Əsərin əsas detallarından biri də, üzərinə əski əlifba ilə“Nalbənd”sözləri yazılmış dəmirçi dükanı və onun yanında bağlanmış iki at fiqurudur.Dükanın sadə və kasıb görünüşdə çəkilməsi ilk baxışdan diqqəti cəlb edir.Emalatxananın interyerində sadəcə kötüyə bərkidilmiş zindan və künc tərəfdə tüstüləyən körük təsvir edilmişdir.Rəssamın bu epizodu çəkməkdə əsas məqsədi,ustaların çoxşaxəli fəaliyyətlərini tamaşaçıya çatdırmaqdır.

Tablonun ikinci planında nallanmağa gətirilmiş atlar, üçüncü planda isə digər sənətkarlıq emalatxanadakı və sərbəst alış – veriş edən bir qrup kəndli təsvir edilmişdir.

Xalqımızın milli adət - ənənələrini özündə yaşadan, onun etnoqrafik xüsusiyyətlərini əks etdirən maraqlı əsərlərdən biri də “Çörəkbişirənlər” əsəridir.

Yağlı boya ilə işlənmiş bu əsər bir qrup kəndli qadınların təndirdə lavaş çörəyi bişirmələri mərasiminə həsr edilmişdir.Azərbaycan məişətində min illər boyu dəyişilməz qalan,bütün sənət sirləri ilə olduğu kimi nəsildə - nəsilə keçən, etnoqrafiq sənətlərimizdən biri də, çörəkbişirmə sənətidir. Rəssam ağbirçək nənələrimizdən bizə miras qalan bu müqəddəs mərasimi bütün incəliklərinə kimi, fırçaya alaraq mədəniyyət xəzinəmizə daha bir qiymətli sənət əsəri bəxş etmişdir.

Tabloda təmiz və səliqə ilə döşənmiş köhnə bir təndirəsərdə lavaş bişirən dörd qadın təsvir edilmişdir.Qadınların zəngin milli geyimləri ilk baxışdan diqqəti cəlb edir.Rəssam bu əsərdə tipik Azərbaycan qadınlarının məğrur, qayğıkeş və zərif obrazını böyük ustalıqla yarada bilmişdir.O, qadınların geyimlərini onların yaşlarına uyğun rənglərdə verilmişdir.Birinci plandakı 35 – 40 yaşlarında olan üç qadının geyimini yaşıl, innabı, bənövşəyi və göy rənglərin tünd çalarları ilə, ikinci plandakı cavan qızın geyimini isə soğan sarısı və açıq göy rənglərdə təsvir etmişdir.Geyimlərin tünd rəngdə təndir və onun ətrafındakı detalların sadə rəng çalarlarından fərqləndirərək ön plana çıxır.

Əsərin əsas plandakı qadınlardan biri qarşısındakı duvağın üzərində xəmir kündələyir, ortada oturan qadın əlindəki vərdənəylə hazır kündələri yayır, üçüncü qadın isə, təndirin başında oturub yayılmış xəmiri rəfətənin üzərinə açır ki, təndirə yapsın.Kompozisiyanın mərkəzində təsvir olunmuş təndirin ışıltısı, bişən çörəklər və təndirdən çıxarılmış isti lavaşların təbii görüntüsü insanda xoş əhval - ruhiyyə

yaradır.Əsər istər yağlı boya ilə işlənmə texnikası ilə, istərsə də, bədii yaradıcılıq cəhətdən çox yüksək sənətkarlıqla yerinə yetirilmişdir.

Şamil Qazıyevin bu səpkidə yaratdığı maraqlı tablolardan biri də, "Xırmanda " əsəridir.Əsər az qala tarix səhnəsindən silinmək üzrə olan bir mərasimə, taxılın xırmanda döyülməsinə həsr olunmuşdur.Rəssam digər əsərlərində olduğu kimi, " Xırmanda" əsərində bu mərasimdə baş verən bütün prosesləri ən xırda incəliyinə kimi yüksək sənətkarlıqla təsvir etmişdir.Tablonun mərkəzində dairəvi şəkildə yayılmış sünbüllərin döyülməsi səhnəsi birinci plan kimi verilib. Rəssam bu epizotda əsas diqqəti öküzlərə qoşulmuş vəllər üzərindəki hodaxçıların əllərindəki şallaqlarda heyvanların heyvanlaşmasdına və başı salmayla iki xırmançının dərzləri meydana yayılması təsvirini verib.İkinci planda dərzlə dolu arabanı boşaldan bir nəfər daşıyıcı,üçüncü planda isə iki kişi təsvir edilmişdir.Bu işçilərdən biri əlindəki kürəklə kənara toplanan döyülmüş buğdanı sovurur, ikinci kəndli isə xırmanın qıragında dərzləri daşıyıcıların gətirdiyi tayalayır. Ümumiyyətlə, Şamil Qazıyevin məişət janrında çəkdiyi əsərlər təkcə Naxçıvan rəssamlıq sənətində deyil, eyni zamanda Azərbaycan təsviri sənətində də bu janrın formalaşmasında mühüm əhəmiyyəti olan çox qiymətli sənət əsərləridir.



## Ədəbiyyat:

1.Hüseynzadə L. Naxçıvan Teatrı tarixindən. Bakı, 2002, 63 s.
2.Qazıyev S. Katoloq . Bakı 1978. S 16.
3.Qəhrəmanov Ə. Cəlili Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı. Bakı.2004, s.411.
4.Naxçıvan Ensiklopediyası. 2 cilddə, I cild, Naxçıvan, 2005, 361 s.
5.Rzayev Ə. Köhnə Bakı. Bakı 1969 s. 66.
6.Naxçıvan Dövlət Tarix Muzeyinin fondu. NDTM, 1540 / R – 7.
7. Naxçıvan Dövlət Tarix Muzeyinin fondu. NDTM, 1538 / R – 9.
8. Naxçıvan Dövlət Tarix Muzeyinin fondu. NDTM, 1539 / R – 10.
9. Naxçıvan Dövlət Tarix Muzeyinin fondu. NDTM, 888 / R – 7.
10. Naxçıvan Dövlət Tarix Muzeyinin fondu. NDTM, 1547 / R – 16.

11. Naxçıvan Dövlət Tarix Muzeyinin fondu. NDTM, 1537 / R – 17.
12. Naxçıvan Dövlət Tarix Muzeyinin fondu. NDTM, 700 / R – 24.
13. Naxçıvan Dövlət Tarix Muzeyinin fondu. NDTM, 695 / R – 18.
14. Naxçıvan Dövlət Tarix Muzeyinin fondu. NDTM, 699 / R – 19.
15. Naxçıvan Dövlət Tarix Muzeyinin fondu. NDTM, 696/ R – 21.
16. Naxçıvan Dövlət Tarix Muzeyinin fondu. NDTM, 1548 / R – 22.
17. Naxçıvan Dövlət Tarix Muzeyinin fondu. NDTM, 886 / R – 25.
18. Naxçıvan Dövlət Tarix Muzeyinin fondu. NDTM, 881 / R – 26.
19. Naxçıvan Dövlət Tarix Muzeyinin fondu. NDTM, 887 / R –27.
20. Naxçıvan Dövlət Tarix Muzeyinin fondu. NDTM, 885 / R – 28.

**Фатма Шахбазова**

**Бытовой жанр в творчестве Шамиля Газиева**

**Резюме**

Нахчыван – это край, имеющий древнюю и богатую культуру. Нахчыван, занимающий маленькое место на планете, всегда был знаменит своими природными богатствами, флорой и фауной, климатом, историческими памятниками, климатом, кухней и своим гостеприимством. Этот край подарил Азербайджану известных актёров, композиторов, художников и скульпторов. Одним из знаменитых художников, выходцев этого края является заслуженный деятель искусства Нахчыванской Автономной Республики, художник Шамиль Гасан оглы Гаджиев. В статье рассматриваются несколько произведений Шамиля Газиева из цикла «Старый Нахчыван», который он посвятил родному городу. Исследуются такие произведения художника, как «Старая мельница», «Подковывание быков», «Женщины, пекущие хлеб», «В молотильне».

**Ключевые слова:** художник, «Старый Нахчыван», национальные мотивы, Шамиль Газиев, театральный художник.

**Fatma Shaxbazova**

**Welfare genre in Shamil Gaziyev's creative works**

**Summary**

Nakhchivan is a land of having old and rich history. This territory of the world as mother pearl is always known with its natural recources, flora and fauna, historical monuments, climate, cuisine and mainly hospitability. This land bestowed actors/actresses, composers, artists and sculptors upon its nation. One of the well-known persons of this land is the honoured art worker of the Nakhchivan Autonomous Republic Shamil Hassan oghluGaziyev. The famous painter ShamilGaziyev's "The Old Nakhchivan" series dedicated to the land he bounded at the heart is dealt with and some works included the very series are areanalyzed in the paper. The artist's works of "The Old Mill", "Shodding oxen", "Bread makers" and "In treshig floor" dealing with the national customs and traditions are preferred to be analyzed.

**Keywords**: artist, "Old Nakhchivan", national motifs, ShamilGziyev, thetre painter

**Məqalənin redaksiyaya daxil olma tarixi: 21.05.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 28.05.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.06.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Aslanova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**